DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİ
YANINDA FƏALİYYƏT GÖSTƏRƏCƏK İCTİMAİ ŞURANIN
YARADILMASI ÜÇÜN KEÇİRİLMİŞ SEÇKİNİN

# YEKUN PROTOKOLU

**11.11.2020-ci il** **Daşkəsən şəhəri**

**Birgə yığıncaqda iştirak edirdilər:**

**Seçki komissiyasının üzvləri:**

| | |
|---|---|
| 1. Namiq Süleymanov | Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |
| 2. Sahib Əhmədov | Daşkəsən Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |
| 3. Elmar Əliyev | Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı |
| 4. Cavid Mehralıyev | Daşkəsən şəhər Bələdiyyəsinin sədri |
| 5. Müşfiq Hüseynov | Daşkəsən rayon Ziyalılar Cəmiyyətinin sədri |
| 6. İsax Məmmədov | Dövlət İdarələri və İctimai Xidmət İşçilərinin Həmkarlar İttifaqının Daşkəsən rayon Komitəsinin sədri |
| 7. Ənvər Əliyev | Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurası Daşkəsən rayon Təşkilatının sədri |
| 8. Vasif Hüseynov | “Qızıl Aypara” Cəmiyyətinin Daşkəsən rayon bölməsinin sədri |
| 9. Bəkir Qurbanov | Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri İctimai Birliyinin Daşkəsən rayon filialının müdiri |
| Dəvət olunanlar: | Daşkəsən Rayon İcra Başçısı Aparatının əməkdaşları, təhsil və mədəniyyət işçiləri, vətəndaşlar |

**Səs vermədə iştirak edən**
**vətəndaş cəmiyyəti institutlarından:**

Saleh Qurbanov - Rayon Ağsaqqallar şurasının sədri

Səttar Fətəliyev - Azərbaycan-Əfqanıstan veteranları ictimai birliyinin sədri

Əli Musayev - Azərbaycan Vətən Müharibəsi Veteranları" İctimai Birliyinin Daşkəsən rayon şöbəsinin sədri

Mətanət Abdullayeva - Daşkəsən rayon Mədəniyyət işçiləri müstəqil həmkarlar təşkilatının sədri

Samaya Şabanova - Daşkəsən rayon Təhsil işçiləri azad həmkarlar təşkilatının sədri

## GÜNDƏLİK MƏSƏLƏ

Daşkəsən Rayon İcra Hakimiyyəti yanında fəaliyyət göstərəcək ictimai şuranın növbəti iki il müddətinə seçilməsi.

## EŞİDİLDİ

Gündəlikdə duran məsələ barəsində iclasın və seçki komissiyasının sədri Namiq Süleymanov məlumat verərək bildirdi ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti 2014-cü il 30 may tarixli 171 nömrəli qərarı ilə "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.3.-cü bəndini əsas tutaraq Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısının 22 sentyabr 2020-ci il tarixli 33 nömrəli sərəncamı ilə Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı Aparatı yanında fəaliyyət göstərəcək ictimai şuraya seçkinin təşkili komissiyası tərəfindən 23.09.2020-ci il tarixdə Daşkəsən Rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində tələb olunan sənədlərin siyahısı, eləcə də lazımi məlumatlar göstərilməklə ictimai şuranın yaradılması ilə bağlı elan yerləşdirilmiş və 11.11.2020-ci il tarixdə saat $16^{00}$-da keçiriləcək seçkiyə namizədlərin qəbuluna başlanmışdır.

23.09.2020-ci il tarixdən 21.10.2020-ci il tarixədək həftənin 5 iş günü saat 9:00-dan 18:00-dək aparılmış namizədlərin sənəd qəbulu aparılmış və müraciət edən aşağıdakı 8 (səkkiz) namizədin hamısının da namizədliyi komissiya üzvləri tərəfindən məqbul hesab olunmuşdur:

1. Həsənov Samir Fidail oğlu;
2. Bayramova Vüsalə Qədir qızı;
3. Mustafayev Akif Vaqif oğlu;
4. Babayev Rəşail Nizami oğlu;
5. Zeynalova Aygül Azad qızı;
6. Cəfərova Gülnar Abbasqulu qızı;
7. Xəlilov Vüqar Müslüm oğlu;
8. Mürsəlov Mübariz Əliyar oğlu.

Seçki komissiyası vətəndaş cəmiyyəti institutlarının müraciəti əsasında birgə yığıncaqda iştirak edəcək təmsilçilərin qeydiyyatını da aparmışdır. Komissiya tərəfindən aşağıdakı təmsilçilər qeydiyyata alınmışdır:

1. "Azərbaycan Vətən Müharibəsi Veteranları" İctimai Birliyinin Daşkəsən rayon şöbəsinin sədri Musayev Əli Vilayət oğlu;
2. Daşkəsən rayon Təhsil işçiləri azad həmkarlar təşkilatının sədri Şabanova Samaya Cahangir qızı;

3. "Azərbaycan-Əfqanıstan veteranları" İctimai Birliyinin Daşkəsən rayon şöbəsinin sədri Fətəliyev Səttar Lətif oğlu;
4. Daşkəsən rayon Mədəniyyət işçiləri müstəqil həmkarlar təşkilatının sədri Abdullayeva Mətanət Həsrət qızı;
5. Daşkəsən rayon Ağsaqqallar şurasının sədri Qurbanov Saleh Cümşüd oğlu.

## ÇIXIŞLAR

1. Daşkəsən rayon Ağsaqqallar şurasının sədri Saleh Qurbanov çıxış nitqində qeyd etdi ki, demokratik prinsiplərlə idarə olunan dövlətdə vətəndaş cəmiyyətinin rolu böyükdür və "İctimai iştirakçılıq haqqında" qanunun tələblərindən irəli gələn yaradılacaq ictimai şuranın məqsədi Azərbaycan vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququnun ictimai iştirakçılıq formasında gerçəkləşdirilməsi üçün təminatlar yaratmaqdır. S. Qurbanov çıxışını Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı Aparatının yanında fəaliyyət göstərəcək ictimai şuranın həmin orqanın fəaliyyətinə obyektiv vətəndaş qiyməti verməkdə məsuliyyətli olmalı olduğunu deyərək bitirdi.

2. Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri İctimai Birliyinin Daşkəsən rayon filialının müdiri Bəkir Qurbanov çıxış edərək bildirdi ki, ictimai iştirakçılığın məqsədləri vətəndaşların dövlət işlərinin idarə olunmasında bilavasitə iştiraka cəlb edilməsi, mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, onlarla ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili, fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması, dövlət siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai rəyin, vətəndaşların qanuni tələbatının və maraqlarının nəzərə alınması, qanunvericiliklə müəyyən edilmiş qaydada vətəndaşların hüquqlarının və azadlıqlarının müdafiəsidir. Mən inanıram ki, yaradılacaq ictimai şura sadaladığım məsələlərə biganə qalmayacaq.

3. Daşkəsən rayon Mədəniyyət işçiləri müstəqil həmkarlar təşkilatının sədri Mətanət Abdullayeva isə keçiriləcək seçkinin şəffaflığını alqışlayaraq söylədi ki, Azərbaycanda demokratikləşdirmə siyasətinin bütün sahələrdə uğurla inkişafı müşahidə olunur. Bu sırada vətəndaş təşəbbüslərinin dəstəklənməsi, dövlət orqanlarının yanında QHT-lərin iştirakı ilə ictimai qurumların yaradılması və s. kimi məsələlərlə bağlı indiyədək bir sıra addımlar atılıb. Vətəndaşlar bu qanunun onlara yaratdığı hüquqi imkanlar çərçivəsində Daşkəsən Rayon İcra Hakimiyyətinin fəaliyyətində ictimai iştirakçılığın məqsədini, prinsiplərini, forma və məzmununu ifadə etməklə yanaşı, həmçinin, ən əsası, mövcud problemlərin yerli qaydada həllinə də nail ola biləcəklər.

İclas yuxarıdakı çıxışlardan sonra seçki keçirərək

## QƏRARA ALIR

1. Birgə yığıncaqda iştirak edənlərin yarıdan çoxunun səsini toplamış aşağıdakı şəxslər Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı Aparatı yanında fəaliyyət göstərəcək ictimai şuranın tərkibinə seçilmiş hesab olunurlar:

1. Həsənov Samir Fidail oğlu;
2. Mustafayev Akif Vaqif oğlu;
3. Zeynalova Aygül Azad qızı;

4. Cəfərova Gülnar Abbasqulu qızı;
5. Xəlilov Vüqar Müslüm oğlu;
6. Mürsəlov Mübariz Əliyar oğlu.

2. Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən təsdiq edilərək ictimai şuraya seçilmiş namizədlərə şuraya üzvlüyü təsdiq edən vəsiqələr verilsin.

3. Seçki komissiyası tərəfindən seçkilərin nəticələrinə dair yekun protokolu tərtib olunduğu gündən iyirmi gün müddətində ilk iclasını keçirməklə ictimai şura fəaliyyətə başlasın.

SƏNƏDLƏR ÜÇÜN

İCLASIN SƏDRİ: N. SÜLEYMANOV

İCLASIN KATİBİ: S. ƏHMƏDOV